# Möhtəşəm qayıdışdan 27 il keçir

***Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq daha çətin və önəmlidir. 1990-cı illərin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi proseslər, qarşıdurmalar nəticəsində ölkəmizdə yaranmış ümumi gərgin vəziyyət bunu bir daha təsdiq edirdi.***

Azərbaycan xalqı tarixi şansdan istifadə edərək ikinci dəfə qazandığı müstəqilliyi həmin illərdə əldən vermək üzrə idi. Bu dəfə düşmənlərimizin bizim üçün ölkəmizi parçalamaq kimi daha dəhşətli plan hazırlaması isə ölkəmizə, xalqımıza və dövlətimizə faciəvi sonluq vəd edirdi. Belə bir vəziyyətdə, 1993-cü il iyunun 9-da türk dünyasının böyük oğlu, ulu öndər Heydər Əliyevin xalqın çağırışına səs verərək Bakıya qayıdışı ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi.

1992-ci ildə silah gücünə iqtidara gələn AXC-Müsavat cütlüyü hakimiyyətdə qaldığı bir il ərzində ölkəni elə bərbad vəziyyətə salmışdı ki, artıq müstəqilliyimizi ancaq möcüzə xilas edə bilərdi. O vaxt Azərbaycan, demək olar ki, dağılırdı. Ölkəmizdə anarxiya, xaos, hərc-mərclik hökm sürürdü. Respublikada qanunsuz silahlı quldur dəstələri meydan sulayırdı. İqtidarın səriştəsizliyi nəticəsində Azərbaycan iqtisadi böhranın məngənəsində boğulur, parçalanırdı. Əhalinin ərzaq, xüsusilə çörək qıtlığı ilə üz-üzə qalması, daxili sabitliyin pozulması, həqiqəti söyləyən alimlərin, ziyalıların təqib edilməsi, separatçılıq sövdələşmələri, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin fəaliyyətinin iflic vəziyyətinə düşməsi, kənd təsərrüfatının, sənayenin tənəzzülü, ölkəyə ərzaq taxılı əvəzinə qarışıq yem gətirilməsi və bir çox dəhşətli faktlar həmin illərin reallığı idi.



Xalq artıq iqtidardakıların hansı qabiliyyətin sahibi olduğunu yaxşı bilirdi. Ona görə də AXC-Müsavat cütlüyü 1993-cü ilin yayında baş verən hadisələr zamanı ictimai dəstəkdən tamamilə məhrum olmuşdu. Elə xalqın dəstəyini itirdiklərinə görə də hakimiyyətdən getməli oldular.

1993-cü il iyunun 4-də Gəncədə başlayan qanlı hadisələr Azərbaycan xalqını milli istiqlaldan məhrum olmağın bircə addımlığınadək gətirmişdi. AXC-Müsavat iqtidarı bu addımın qarşısını almaq üçün heç bir iş görmək gücündə deyildi. Gəncədə baş verən hadisələrdən sonra onların ulu öndər Heydər Əliyevi Bakıya dəvət etmələri də xalqın təkidli tələblərindən daha çox öz canlarının hayına qalması səbəbindən idi.

Ulu öndər o dövrün Azərbaycanını belə xarakterizə edirdi: “1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər”.

Ölkədə hamı ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsini israrla tələb və xahiş edirdi. O zaman dövlətimizin nicat yolu dahi şəxsiyyətin Naxçıvandan Bakıya gəlməsində, xalqımızın ümid yeri isə o böyük insanın siyasi dühasında, liderlik məharətində, dövlətçilik təcrübəsində, şəxsi keyfiyyətlərində idi.

Hər zaman xalqın yanında olan və xalqın arzu-istəklərinin reallaşdırılması üçün öz canını belə əsirgəməyən ulu öndər 1993-cü il iyunun 9-da muxtar respublikadan Bakıya qayıtmaqla, xalqın ölməkdə olan ümidlərini özünə qaytardı. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Məhz milli tariximizin həmin unudulmaz günü xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkə paytaxtına qayıdışı ilə müstəqil dövlətçiliyimiz parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas edildi.

Təbii ki, bütün bunlar böyük Qurtuluşdan sonra real həyatda öz əksini tapdı. Ancaq ölkədə hamı bu fikirdədir ki, xalqımızı nicata aparan yol bilavasitə iyunun 9-da başlandı.

Bu gün respublikamızda dahi şəxsiyyətin müəyyənləşdirdiyi uğurlu siyasi xəttin qətiyyətlə davam etdirilməsi Azərbaycan xalqının xoşbəxtliyidir. Ölkəmizin firavan gələcəyinin təminatına hesablanmış praqmatik siyasi strategiya sayəsində respublikamız regionun lider dövlətinə çevrilib, ölkəmizin nüfuzu daha da artıb. Hazırda respublikamız iqtisadi inkişaf tempinə görə dünyanın ən qabaqcıl ölkələrindən biridir.

Xalqımız, dostlarımız və bədxahlarımız çox yaxşı bilirlər ki, Azərbaycanın bugünkü uğurlarının hamısının təməlində ulu öndər Heydər Əliyevin böyük siyasətə qayıdışı və həmin qayıdışın ölkə əhalisində yaratdığı ruh yüksəkliyi dayanır.

**Qüdrət SƏMƏDOV,**
**“Qəbələ”**

# Pandemiya ilə mübarizə insanların həyat tərzi olmalıdır

Koronavirus pandemiyasının ölkədə təsirinin minimuma endirilməsi məsələsi birbaşa dövlətin nəzarətindədir. Həyata keçirilən siyasət bir tərəfdən virusun əhalinin sağlamlığına təsirinin minimuma endirilməsi məqsədini daşıyırsa, digər tərəfdən pandemiyanın sahibkarlara, muzdla işləyənlərə, eləcə də işləməyən vətəndaşlara təsirinin azaldılmasına xidmət edir.

Pandemiya ilə mübarizə çərçivəsində Prezident İlham Əliyevin tapşırığı ilə hazırlanan dəstək paketləri hazırda icra olunur. Koronavirusla mübarizədə gözəl nümunə göstərən ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatının qiymətləndirməsinə görə COVID-19 pandemiyasına qarşı uğurlu mübarizə aparan dövlətlər sırasında yer aldı.

İnfeksiyaya qarşı mübarizədə vətəndaşların qaydalara əməl etməsi son dərəcə zəruridir. Təəssüf ki, xüsusi karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra insanlarda arxayınlıq yaranıb. Onlar sanitar-gigiyenik qaydalara riayət etmir, sosial məsafəni gözləmirlər. Bu da təbii ki, yeni yoluxma hallarının sayında artım müşahidə olunmasına gətirib çıxarır.

Mövcud şəraitdə hər bir vətəndaşın daha məsuliyyətli olmasına, pandemiya ilə mübarizədə dövlətin həyata keçirdiyi siyasətə daha yaxından dəstək olmasına böyük ehtiyac var. Pandemiya vəziyyəti hələ də davam etdiyindən və COVID-19 infeksiyasının müalicəsi üçün zəruri dərman preparatı, eyni zamanda, bu xəstəliyə qarşı peyvənd tapılmadığından koronavirusla mübarizə hər bir vətəndaşın gündəlik həyat tərzi olmalıdır.

Hər birimiz qaydalara ciddi əməl etməli, xəstəliyə yoluxmamaq üçün təhlükəsizlik tədbirlərinə məsuliyyətlə yanaşmalıyıq. Tibbi maskalardan istifadə, sosial məsafənin gözlənilməsi mütləqdir. Məhz bu zaman pandemiyaya qarşı mübarizədə əldə edilmiş uğurları, pozitiv nəticəni qoruyub saxlaya, virusun lokallaşdırılmasına nail ola bilərik.

**"Qəbələ"**

# Könüllülərimiz aztəminatlı ailələrin zəruri ehtiyaclarının qarşılanmasına yaxından köməklik göstərmişlər

Dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışları ilə bağlı yeni növ koronovirus infeksiyasının yarada biləcəyi təhlükə ilə mübarizədə dövlət tərəfindən həyata keçirilən tədbirlərin dəstəklənməsi məqsədilə 27 mart 2020-ci il tarixdə ölkədə fəaliyyət göstərən könüllü təşkilatları və hərəkatları tərəfindən yaradılan Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi (AKƏM) uğurla fəaliyyət göstərir.

Qısa zamanda mərkəz tərəfindən respublikanın demək olar ki, bütün şəhər və rayonlarında könüllülər səfərbər olunmuş, onların əlaqələndirilməsi və lazımi fəaliyyətlərə yönləndirilməsi həyata keçirilmişdir.

Mərkəzin keçirdiyi aksiyalar çərçivəsində könüllülər tənha yaşlılara, aztəminatlı ailələrə baş çəkmiş, onların zəruri ehtiyaclarının qarşılanmasına köməklik göstərmiş, həmçinin koronavirus infeksiyası ilə əlaqədar olaraq qan qıtlığının təcili qana ehtiyacı olan şəxslərin həyatı üçün yaratdığı təhlükənin aradan qaldırılmasına fəal töhfə vermişlər. Qısa zamanda AKƏM tərəfindən respublikanın demək olar ki, bütün şəhər və rayonlarında könüllülər səfərbər olunmuş, onların əlaqələndirilməsi və lazımi fəaliyyətlərə yönləndirilməsi həyata keçirilmişdir.

“Böyüklərimizi qoruyaq!” devizi altında keçirilən kampaniyaya qoşulan könüllülər rayonumuzda yüzlərlə tənha adamların, yaşlıların, aztəminatlı ailələrin, şəhid ailələrinin, fiziki məhdudiyyəti olan şəxslərin evlərinə baş çəkmiş, onlara müxtəlif ərzaq və gündəlik tələbat məhsullarından ibarət bağlamaların çatdırılmasında köməklik göstərmişlər.

Heydər Əliyev Fondunun ölkədə uğurla həyata keçirdiyi sosial layihələrin davamı kimi sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün fond tərəfindən Qəbələ rayonuna göndərilən 716 ədəd ərzaq bağlamalarının ünvanlarına çatdırılmasında könüllülər fəal iştirak etmişlər.

Ölkədə 8 aprel tarixində başlayan “Könüllü Qonşu” aksiyası çərçivəsində rayonda könüllülər tərəfindən məhəllə və binaların girişində xüsusi elanlar vasitəsilə əlaqə nömrələri paylanılmış, ehtiyacı olan şəxslər barədə məlumat verilməsi xahiş edilmişdir. Bu nömrələrə daxil olan zənglər əsasında könüllülər vətəndaşların öz vəsaitləri hesabına onlara gündəlik ərzaq məhsullarının, dərman vasitələrinin alınmasına və kommunal ödənişlərinin həyata keçirilməsinə köməklik göstərmişlər.

Könüllülərimiz əhali arasında pandemiya ilə bağlı maarifləndirmə işlərinin aparılması, küçədə maskasız gəzən şəxslərə tibbi maskaların paylanılmasında da böyük həvəslə iştirak etmişlər.

Qəbələ gəncləri, xüsusilə də könüllüləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına öz əməli işləri ilə cavab verərək pandemiya dövründə elan edilən karantinlə bağlı dövlətə və dövlətçiliyə sədaqətlərini bir daha nümayiş etdirmişlər.

**“Qəbələ”**